F. Köçərli adına Respublika
Uşaq Kitabxanası

# Təbiət bir kitabdır, gəlin, onu oxuyaq!

*İnsanın yaxşı həyatını təmin edən amillərdən biri də ekoloji vəziyyət, sağlamlıq və təbiətin, ətraf mühitin qorunmasıdır. İnsanların sağlamlığına, ekoloji vəziyyətə, udduğumuz havaya, içdiyimiz suya, bütün bunlara biz çox böyük diqqət göstərməliyik.*

***İlham Əliyev***

*(Veblioqrafiya)*

**Bakı - 2024**

**VEBLİOQRAFİYA** - ***Müasir kitabxanaların fəaliyyətinin aktual məsələlərindən biri, istifadəçilərin informasiya sorğularının təmin edilməsi üçün İnternet informasiya resurslarından istifadədir. Bu resursların siyahılarının tərtibi məqsədilə veblioqrafik göstəricilərin hazırlanmasına ehtiyac vardır. Bu termin hələ 1990-cı illərdə Amerika mətbuatında istifadə edilmişdir. Termin həmçinin veb-biblioqrafiya və veboqrafiya kimi də işlənir. Veblioqrafik göstəricilər biblioqrafik vəsaitlərin xüsusi növü olub, İnternet informasiya resurslarını (elektron sənədləri, linkləri) əks etdirir. Bu cür göstəricilər kitabxanaçılar və istifadəçilər üçün mühüm sorğu-biblioqrafik resurs hesab edilir. Veblioqrafik göstəricilər həm soraq-biblioqrafiya aparatının bir hissəsidir, həm də internet istifadəçilərinin informasiya mədəniyyətinin və özünə xidmətin səviyyəsinin yüksəldilməsinə təsir edir. Hər bir kitabxana oxucular üçün faydalı olacaq resursların, saytların linklərini siyahı formasında saytda yerləşdirməklə onların diqqətinə çatdırmaqla veblioqrafik nümunələr yaratmış olur.***

**© F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2024.**

**Tərtib etdi:** **Məlumat-biblioqrafiya şöbəsi**

**Əkbərova Aysel**

**Ünvan**: Bakı şəhəri, S.Vurğun küçəsi 88

**Əlaqə:** (+99412) 597-08-79, (+99412) 597-09-86

info@clb.az

ushaqkitabxanasi@gmail.com

childlibbaku@yahoo.com

## Giriş

Yaşadığımız dünya, bizi əhatə edən maddi aləm son dərəcə gözəl, zəngin və rəngarəngdir. Bu ətraf aləm təbiət adlanır. Əslində biz özümüz də bu təbiətin bir zərrəsiyik, onun tərkib hissəsiyik. Təbiət bizim hamımızın anasıdır. Bizim yaşadığımız dünya çox gözəldir. O həm də əsrarəngiz və maraqlıdır. Biz zəngin və füsunkar bitkilər aləminin, vəhşi heyvanlardan tutmuş ən xırda həşəratlara qədər saysız-hesabsız canlıların əhatəsindəyik. Əslində Yer kürəsi adlandırdığımız planetin məzmunu da elə ən şüurlu və ən ali varlıqlar olan biz insanlarla bizi əhatə edən təbiətin harmoniyasındadır. Dünyamızın sabahı və gələcəyi bu vəhdətdən və bu vəhdətin əzəli və əbədi tarazlığından asılıdır. Bu harmoniyanın, bu tarazlığın pozulması dünyanı fəlakətə sürükləyə bilər, bütün bəşəriyyəti məhv edə bilər. Ona görə də biz insanlar təbiətə qayğı və məhəbbətlə yanaşmalı, planetimizin bitki örtüyünü və canlılar aləmini qorumalıyıq. Təbiətin ayrılmaz hissələrindən biri meşələrdir. Almanlar meşələrə çox mənalı və müasir səslənən bir ad veriblər: «Yaşıl ciyər». Yaşıllıq insana çörək qədər lazımdır. Yaşıllıq, meşələr olmadan təkcə insanlar deyil, başqa canlılar da yaşaya bilməz. Məlum həqiqətdir ki, meşələri - Yer kürəsinin bu yaşıl kəmərini bir an belə onsuz təsəvvür etmək olmaz. Təəssüflə qeyd etməliyik ki, son zamanlarda bir çox faktorlardan qaynaqlanan təhlükələr meşələri, təbiəti təhlükə altında qoyur. Yaşıllığa, meşələrə qarşı ölçüsüz-biçisiz hücum insana qarşı yönəlmiş ən ağır müharibədir. İnsan ağlı, insan zəkası bu «müharibəni» dəf etməyə qadirdir və biz təbiətin nizamını pozan, onun qədrini bilməyən, korlayan adamlara qarşı mübarizə aparmalı, təbiətimizi və onun gözəlliyini mühafizə etməliyik.

Son illərdə respublikamızda təbiətin qorunması və mühafizəsi məsələsinə çox böyük diqqət yetirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müxtəlif illərdə ekologiyanın qorunmasına dair verdiyi qərar və sərəncamlar bunun ən bariz nümunəsidir. 2008-ci ildə "Ekoloji təhlükəsizlik haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə "Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 4 avqust tarixli 172 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti Fərman imzaladı.

Bu sahədə ən böyük təşəbbüs isə hər il keçirilən Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının (COP) 2024-cü ildə Azərbaycanda keçirilməsidir. COP - 1995-ci ilin mart ayında Almaniyanın Berlin şəhərində BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası üzərində ali qərarların verilməsi üçün yaradılmış qurumdur. COP bu konvensiyanın ən üst qərarverici qurumudur və konvensiyaya tərəfdaş olan, onu ratifikasiya edən ölkələr (hazırda 198 ölkə) COP-da təmsil olunurlar. COP-un missiyası konvensiyadan irəli gələn tələblərin, tövsiyələrin icrasına nəzarət etməkdir.

Azərbaycan Tərəflər Konfransının bu ilin noyabrında Bakıda keçiriləcək 29-cu sessiyasına (COP29) sədrlik edəcək. Azərbaycan beynəlxalq tədbirlərə ev sahibliyi etmək sahəsində zəngin təcrübəyə malikdir. Konvesiyanın ali məqsədi iqlim sisteminə insanlar tərəfindən edilən və təhlükəli hesab oluna bilən bütün müdaxilələrin qarşısını almaqdır. Azərbaycan Respublikasının Prezidenti ölkəmizin işğaldan azad edilmiş torpaqlarını "Yaşıl enerji" zonası elan edib. Bu ərazilərin 2050-ci ilədək "Netto sıfır emissiya" zonasına çevrilməsi nəzərdə tutulur.

COP29 konfransına ev sahibliyini Azərbaycan üçün 2024-cü ilin ən mühüm hadisəsi və ölkənin yaşıl iqtisadiyyata keçid strategiyasının məntiqi davamı kimi qiymətləndirmək olar. Bu missiyaya uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2024-cü il Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib.

## Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verir.

Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilmişdir. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır.

Azərbaycan baza ili (1990) ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi götürmüşdür.

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası yaşıl enerji zonası elan olunmuşdur. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritetdir. Həmin ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur.

Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Azərbaycan elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, iqlim dəyişmələrinə qarşı qlobal mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasında 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham Əliyev**

*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 25 dekabr 2023-cü il*

## Tanınmış şəxslər təbiət haqqında

İnsan təbiətdən öyrənir, onun havası ilə pərvəriş tapır, ağıla dolur, zənginləşir, təzələnir, təmizlənir.

Mən dəfələrlə demişəm, bir də deyirəm, kim hansı bir sağlam ağacı kəsirsə hesab edirəm ki, o, mənim qolumu, barmaqlarımı kəsir... İnsan qurmalıdır, yaratmalıdır... Mən istəyirəm ki, hamınız təbiəti qoruyanlar olasınız. Təbiətə zərər vuranlar, təbiəti çirkləndirənlər, korlayanlar cəmiyyətimizin, hamımızın düşmənidir.

Təbiətin ölkəmizə bəxş etdiyi zəngin sərvətlərə xüsusi qayğı ilə yanaşmaq, belə misilsiz xəzinələri bəşəriyyətin gələcəyi naminə qorumaq üzərimizə düşən başlıca vəzifələrdəndir.

***Heydər Əliyev***

Ətraf mühiti təkcə qanunvericilik aktlarının tədbirləri ilə mühafizə etmək olmaz. Əhaliyə təbiəti mühafizə haqqında geniş məlumat vermək, onun yollarını göstərmək lazımdır. Hər bir vətəndaşın ekoloji mədəniyyətinin və savadının formalaşmasında təbliğatın rolu böyükdür.

Təbiət musiqi mənbəyi, şeir, sənət guşəsi, ilham çeşməsidir. Təbiət ən gözəl müalicə vasitəsi, ən gözəl loğmandır.

***Həsən Əliyev***

Buludlar ağlamasa, yaşıllıq necə gülə bilər?

***Mövlana Cəlaləddin Rumi***

Əgər meşələr qırılarsa, yayda müsəlləh sədası, qışda isə təzək tüstüsü göylərə ucalar.

***Həsən bəy Zərdabi***

Təbiətin anası olan dünya həm də onun məzarıdır – yaratdıqlarını basdıran məzar.

***V.Şekspir***

İnsana nə üç arşın torpaq, nə də malikanələr lazım deyil, ona bütün Yer kürəsi, bütün təbiət lazımdır ki, bu geniş aləmdə özünün azad ruhunun bütün mahiyyət və xüsusiyyətlərini meydana çıxara bilsin.

***A. Çexov***

Təbiətə qarşı işlənən cinayətin qisası, insan ədalətindən daha çətindir.

***F. Dostoyevski***

Sənətin vəzifəsi, təbiəti kopiya etmək deyil, təbiəti ifadə etməkdir.

Təbiət sevgisi yeganə sevgidir ki, insanların ümidlərini puç etmir.

***O. Balzak***

Təbiət heç vaxt bizi aldatmır – özümüz aldanırıq.

Təbiət susanda insan danışır.

***J.Russo***

Təbiəti yalnız onun qanunlarına tabe olmaqla ram etmək olar.

***F.Bekon***

Təbiət zarafatı xoşlamır – o, həmişə dürüst, ciddi və sərtdir. Və həmişə haqlıdır. Səhvlər, yanlışlıqlar isə hər dəfə insan əliylə baş verir.

Təbiət dinclik bilmir və tənbəlliyi cəzalandırır.

Təbiət bütün yaradılmışların ən yaradılmışıdır.

***İ.Höte***

Təbiətdə heç nə ölmür.

***T.Qotye***

Təbiəti insanlara sevdirən, cazibəsinə salan, ilhamlandıran yalnız və yalnız onun təbiiliyidir.

***V.Humboldt***

İnsan hətta yuxusunda belə təbiətdə olandan gözəl nəsə görə bilməz.

***A.Lamartin***

Təbiət saxtalığa qarşı dözümsüzdür.

***T.Karleyl***

Təbiət üzərində işlədiyi bir şeyi də tələsik yekunlaşdırmır.

***J.Lamark***

Əbədiyaşar təbiətin xarabalıqları da həyatın davamı üçündür.

***Q.Lessinq***

Təbiətin qanunlarından heç hara qaçıb gizlənə bilməzsən.

***Menandr***

Təbiətin gücünü ölçə bilməyəndə insanlar təbiətə, ölçə biləndə isə təbiət insanlara tabe oldu.

***Q.Plexanov***

Təbiətin yaratdıqları sənətin yaratdıqlarından daha mükəmməldir.

***Siseron***

Bütün təbiəti izah etmək hər hansı bir adam üçün, hətta bütöv bir dövr üçün çox çətin məsələdir. Bunu tədricən, amma əminliklə etmək, qalanları isə sizdən sonra gələnlərə saxlamaq, əminlik olmadan hər şeyi fərziyyələr əsasında izah etməkdən daha yaxşıdır.

Təbiət sadədir və artıq səbəblərlə cah-calalla yaşamır.

Təbiət sadəlikdən məmnundur. Təbiət isə kukla deyil

***İ. Nyuton***

## Aforizmlərdə

- Təbiət eynən ana kimidir. Yedirdir, içizdirir, geyindirir, amma heç zaman bundan yorulmur.
- Təbiətə qarşı edilən cinayətin cəzası insan ədalətindən daha çətin olur.
- Çirkli mühit insanın ruhunu, çirkli ruhlar ətraf mühiti çirkləndirir.
- Hamımızın bir anası var: torpaq.
- Heç kim heç kimə kölə ola bilməz, ancaq torpaq yaşamaq üçün yağışın köləsi olmağa məcburdur.
- Təbiət gizlənməyi sevir.
- Təbiət Tanrının yazdığı kitabdır.
- Heç bir rəsm hər gün gördüyümüz təbiət tablosu qədər gözəl ola bilməz.
- Bir millətin həqiqi sərvəti meşə örtüyü ilə ölçülə bilər.
- Təbiət sümürməli, gəmirməli bir şey deyil.
- Təbiətin qiymətini bilmək üçün ən axırıncı balığı tutmağa, ən sonuncu ağacı kəsməyə nə gərək var?
- Budaqlar ağacların damarlarıdır. Onları kəsib ağacları öldürməyin.

## Şeirlərdə

Böyük bir ağaca mişar çəkmə sən,
Zöhhak bunun üçün düşdü təxtindən.

***Nizami Gəncəvi***

Sıra dağlar, gen dərələr,
Ürək açan mənzərələr,
Ceyran qaçar, cüyür mələr.
Nə çoxdur oylağın sənin,
Aranın, yaylağın sənin…

***Səməd Vurğun***

Yaşıl-yaşıl meşələrə sal nəzər.
Dağ başında duman gəzər, çən gəzər,
Qoy ləpəsiz dalğalansın göy Xəzər,
Əsrarəngiz bir cənnəti qoruyaq!
Ey insanlar, təbiəti qoruyaq!
Təbiətə məhəbbəti qoruyaq.

***Rza Baqi***

Həm yerin, həm göyün sirrini aşkar,
Oxudum bir gülün ləçəklərindən.
Böcəklər, çiçəklər, güllər, arılar
Kim deyir ayrıdır biri-birindən?
Eşqdir yaşadan təbiəti də,
Çiçəklər torpağın min bir rəngidir.
Böcəklə çiçəyin məhəbbəti də
Ana təbiətin öz ahəngidir.

***Bəxtiyar Vahabzadə***

Zülmət gecələrdə parlayan şimşək,
Yol üstə göz qırpan mayak deyilmi?
Gəlin təbiəti biz də düşünək,
O özü hər şeyi düşünən kimi.

***Hüseyn Arif***

Gözü intizarda hər axşam-səhər.
Təbiət haqq-hesab istəyir bizdən.
Bu gün bacalardan çıxan tüstülər,
Sabah çıxacaqdır əsəbimizdən.

***Tofiq Mütəllibov***

# Təbiət haqqında kitablarda: Uşaqlar və ətraf aləm




**Abbasov M.** Məktəblinin təbiət elmləri lügəti : 2 cilddə. C. 1. : A-İ. - Bakı : Ayna Mətbu Evi, 2006. - 216 s.




**Abbasov M.** Məktəblinin təbiət elmləri lüğəti : 2 cilddə. C. 2. : J-Z. - Bakı : Ayna Mətbu Evi, 2006. - 220 s.

"Məktəblinin təbiət elmləri lüğəti"ndə toplanmış terminlər, ifadələr, anlayışlar fizika, kimya və biologiya kimi hər biri intəhasız bir dərya olan müxtəlif elmləri əhatə edir. Məktəblilərin təbiət elmlərini dərindən öyrənilməsinə kömək məqsədilə işlənib hazırlanmışdır. Kimya, fizika və biologiya ilə bağlı çoxlu sayda mühüm bilgilərin bir lüğətdə toplanması ali məktəb imtahanlarına hazırlaşanlar üçün çox rahat və səmərəli olmalıdır.
**http://web2.anl.az:81/read/page.php?bibid=vtls000058488**




**Cabir Z.** Təbiətdən məktub. Bakı: Təhsil, 2024. – 32 s.
Təbiətdən gələn məktubu oxu, əziz dost. Oxu və ana təbiətin qayğılarını anla. Onu nə narahat edir, nə ağrıdır? Bu suallara cavab tap. Meşələrin yamyaşıl, çayların və göllərin dupduru, yağışların göz yaşı kimi tərtəmiz, quşların, heyvanların sağlam olmasını istəyirsənsə, təbiəti qoru. Bu kitabı oxuyan gündən təbiətin ən yaxın dostu və xilaskarı ol!
Kitabdakı rəsmlərin müəllifləri isə elə sənin həmyaşıdların, "PalitraArt" studiyasının gənc təbiətsevərləridir.
Kitabda kiçik dostlarımız üçün təbiət haqqında maraqlı hekayələr yer alır.




**DeDonato R**. Təbiətşünas Aysel : İtmiş yemək: ingilis dilindən tərcümə. - Bakı : TEAS PRESS Nəşriyyat evi. "Üç alma uşaq ədəbiyyatı", 2016. - 34 s.

Aysel və onun dostu Tısbağa maraqlı ekskursiyaya çıxıblar və təbiətdə olan izləri araşdırırlar. Siyahıdakı yeddi möcüzənin hamısını tapan ilk komanda qalib gələcək. Ancaq Aysel və Tısbağa başqa şeyi də axtarmalıdırlar. Kimsə onların yeməyini oğurlayıb. İtmiş yeməyi tapmaq üçün axtarışlar başlayır, tezliklə Aysel və Tısbağa heyvan izləri görərək maralları, quşları və hətta qunduzları tapırlar. Görəsən, Aysel bu sirrin üstünü açıb yemək oğrusunu tapa biləcəkmi? Ümid edək ki, bu məsələni nahar vaxtı çatana qədər həll edəcəklər. Çünki Tısbağa çox acıb!

**DeDonato R**. Təbiətşünas Aysel : İtmiş tırtıl : ingilis dilindən tərcümə. - Bakı : TEAS PRESS Nəşriyyat evi. "Üç alma uşaq ədəbiyyatı", 2020. - 36 s.




Aysel təbiətdə olan hər şeyi – cırcıramalardan tutmuş okeanlara, hündür, lap hündür ağaclara qədər hər şeyi sevir. O, həmçinin tapmaca tapmağı da çox xoşlayır. Çünki Aysel təbiətşünasdır! O və dostu Tısbağa Tırtılın yoxa çıxdığını görəndə dərhal axtarışa başladılar. Aysel böyüdücü şüşəsini götürərək ağacda yerləşən qərargah-evinə getdi və dəlilləri axtarmağa başladı. Cəsarətli detektiv qızla skuter sürməyi və yeməyi çox sevən Tısbağanın dəlilləri toplayaraq müəmmalı tapmacanı necə tapması oxucuların marağına səbəb olacaq.




**Duşek İ**. Kainatın atlası : Gənc astronavtların illüstrasiyalı soraq kitabçası. - Çin : Zebra group, 2013. - 28 s.
Atlasda Günəş sistemi, kosmik uçuş, ilk kosmonavtlar, kosmosdakı ilk insan haqqında məlumatlar verilib. Kainatın atlası uşaqlarda kainat və onun quruluşu haqqında təsəvvürlər yaradacaq, onları müxtəlif fəza cisimləri və astronomik hadisələrlə tanış edəcək. Kitabın əsas məqsədi uşaqlarda müşahidə etməyə və biliklərə yiyələnməyə həvəsi inkişaf etdirməkdir.

Dünyanı dərk edirəm : 4-5 yaşlı uşaqlar üçün. - Bakı : Çaşıoğlu-Multimedia, 2009. - 54 s.
Bu nəşr 4-5 yaşlı uşaqlar üçün ətraf mühütlə tanışlıq məqsədi daşıyır. Burada uşaqlar üçün rəngli şəkillərlə çalışmalar, rəngləmələr, şeirlər verilmişdir. Kitabda şeirlər və tapmacalar var. Uşağın oxumağı və öz fikirlərini sərbəst ifadə etməyi öyrənməsi üçün onun kifayət qədər anlayışları tanıması vacibdir. Kitabda şəhər və kənd, fəsillər, heyvanlar, ağaclar, güllər haqqında ilkin təsəvvür yaratmaq məqsədli bölmələr verilmişdir.







Ekoloji əlifba / "Gülüm" Uşaq Ekoloji Təşkilatı (Azərbaycan) ; "Gülüm" Uşaq Ekoloji Təşkilatı (Azərbaycan). - İkinci nəşr. - Bakı : Gənclik, 2003. - 33 s.
Bu kitabda uşaqlar üçün əlifba sırası ilə gözəl şeirlər verilmişdir. Hər bir şeir bir hərfi bildirir və hər şeir təbiətin bir parçası haqqındadır.

Elm və təbiət kitabım : Məktəbəqədər Bilik Qutusu Təlim dəsti. - "Çamlıca Çocuk" nəşrləri əsasında. - Bakı : EVEREST, 2022. - 64 s.

Kitabda bədənim, canlılar, ətraf mühit, yer, səma və kosmos kimi mövzular anlatma, istiqamətləndirmə, təcrübə, sənət fəaliyyətləri, asetatlı və stiker səhifələri, test və vərdiş metodları ilə verilmişdir. Çalışmalar hazırlanarkən uşağın passiv dinyəyici deyil, təhsil prosesinin fəal iştirakçısı olmasına diqqət yetirilmişdir. Məzmun və üsullar Məktəbəqədər Təhsil Proqramına, uşağın yaş qrupuna uyğun olaraq hərtərəfli inkişafına (dərketmə, sosial, emosional, motor və dil inkişafı) yönəldilmişdir









Həşəratlar : Məktəbyaşlı kiçik uşaqlar üçün. - Bakı : Qanun; Əli və Nino nəşriyyatı, 2013. - 32 s. Şən illüstrasiyalarla zəngin olan bu kitabda uşaqlara həm şəkillərlə, həm də sadə izahlarla təbiət hadisələri, həşəratlar**,** onların zərərləri və faydaları haqqında məlumat verilmişdir.

Planetin qəribə quşları. - Bakı : Qanun; Əli və Nino nəşriyyatı, 2013. - 32 s.
Ətraf aləm sürətlə dəyişir. İstedadlı, ağıllı gənclərin suallarının sayı və çeşidləri də artır. Bu seriyadan olan ensiklopediyalar ətraf aləm haqqında öz biliklərini genişləndirməyə çalışanlar üçündür. Kitabda uşaqlara dünyanın nadir və qəribə quşları haqqında şəkilli izahlarla məlumat verilir.




Heyvanlar aləmi : Yırtıcılar. - Bakı : Çaşıoğlu, 2006. - 128 s. Əziz oxucu, yer kürəsinin zəngin canlı aləmi var. İnsan bu aləmin gözəlliyini görmək və duymaq üçün ona böyük maraq göstərib, təbiəti öyrənib və öz məqsədi üçün ondan istifadə edib. Qədim zamanlardan bəri insanlar heyvanları ovlamış, onların ətindən, dərisindən istifadə etmiş, hətta əhlilləşdirib təsərrüfat işlərində də heyvanlardan faydalanmışlar.
Təbiəti heyvansız, quşsuz, həşəratsız təsəvvür etmək olmaz. Heyvanlar haqqında maraqlı məlumatlar almaq, onların oxşar və fərqli cəhətlərini öyrənmək, heyvanlar aləminə səyahət etmək istəyirsinizsə təqdim etdiyimiz bu kitabı oxuyun.

Heyvanlar aləminin ensiklopediyası : Meşə, dağ, çöl-səhra, dəniz-çay, ev heyvanları, cücülər, balıqlar və quşlar. - Bakı : Zərdabi LTD MMC, 2016. - 128 s.
Bu ensiklopediya Belqradın Nolit nəşriyyatının buraxdığı heyvanlar aləminin ensiklopediyasının mətn və şəkilləri əsasında hazırlanmışdır. Şəkillərin çoxu italyan rəssamı Alberto Matoninindir. Bəzi rəsmləri isə azərbaycanlı rəssam İsGəndər Kərimov çəkmişdir. Ensiklopediya iki kitabdan ibarətdir. Birinci kitab cücələr, balıqlar və quşlardan, ikinci kitab isə digər heyvanlardan bəhs edir.







Qoruq və yasaqlıqlarımız. 8(565). - Bakı : Azərbaycan nəşriyyatı, 2010. - 18 s.

Burada müxtəlif milli qoruq və yasaqlıqlar haqqında məlumat verilmişdir.Təbiəti öyrənmək, onu qorumaq, zənginləşdirmək hamının borcudur. Elə bu məqsədlə də yurdumuzda bir sıra qoruqlar, yasaqlıqlar yaradılmışdır. Uzun illərdir ki, təbiətimiz, onun ayrılmaz parçası olan meşələr, nadir bitkilər, heyvanlar, quşlar dövlət tərəfindən qorunur.

**Qrin Y**. Yer planeti. Ezackar planetimiz üzrə səyahət : 3D səyahət : Beş ədəd möhtəşəm üç ölçülü panoramlarla. - Çin : Zebra group, 2011. - 31 s.
Kitab gənc oxucunun qarşısında Yer haqqında elmin ecazkar dünyasını açır. Yer – kainatdakı yeganə canlı planetdir. Bəs bizim planetimiz necə qurulub və onu xüsusi edən nədir? Yeri formalaşdıran böyük qüvvələri – vulkanları, okeanları, atmosferi və buzu tədqiq edərək, biz onların Yer üzünə, onun iqlimi və tarixinə necə təsir göstərdiyini öyrənəcəyik. Möhtəşəm fotoşəkillər və illustrasiyalar, sözün əsl mənasında, insanı heyran edən mənzərə yaradır, elmi fakt və izahlar isə dramatiklik və bilik arasında incə balans formalaşdırır. Keyfiyyətli izahlar və zəngin illüstrasiyalar planetimiz və onun quruluşu barədə tam təsəvvür yaradacaq. Yer planetinə dair göstərilmiş faktların çoxunu siz özünüz üçün yeni kəşf edəcəksiniz.



Quşlar : Oxumaq, öyrənmək və rəngləmək üçün kitab. - Bakı : Tutu Uşaq Mədəniyyət Mərkəzi, 2003. - 17 s.




Bu kitabda planetimizdə yaşayan bəzi qeyri-adi quşlar haqda söhbət açılır. Bu kitab həm oxumaq, həm baxmaq, həm də boyamaq üçündür. Səhifələrdəki mətnlərdə quşlar haqqında bir çox maraqlı məlumatlar yer alır.

150 mln. il öncə dinozavrlar dövründə Yer üzündə Arxeopteriks yaşayırdı. O, qanadları lələkli, qarğa boyda dinozavr idi. Amma alimlərin fikrincə Arxeopteriks həm də planetimizdə mövcud olan ilk quş idi. Bu barədə ətraflı kitabı oxuyaraq öyrənmək olar.










**Labrek E**. Adalar : ingilis dilindən tərcümə. - Bakı : TEAS PRESS Nəşriyyat evi. "Üç alma uşaq ədəbiyyatı", 2015. - 32 s.
"Adalar" kitabını oxumaqla siz bu füsunkar relyef forması haqqında hər şey, o cümlədən onların necə və harada yaranması, dərələrdə mövcud olan bitki və heyvanlar aləmi barədə ətraflı məlumat əldə edəcəksiniz.

**Labrek E**. Dərələr : ingilis dilindən tərcümə. - Bakı : TEAS PRESS Nəşriyyat evi. "Üç alma uşaq ədəbiyyatı", 2015. - 32 s.
"Dərələr" kitabını oxumaqla siz bu füsunkar relyef forması haqqında hər şey, o cümlədən onların necə və harada yaranması, dərələrdə mövcud olan bitki və heyvanlar aləmi barədə ətraflı məlumat əldə edecəksiniz.

**Labrek E**. Mağaralar : ingilis dilindən tərcümə. - Bakı : TEAS PRESS Nəşriyyat evi. "Üç alma uşaq ədəbiyyatı", 2015. - 32 s.
"Mağaralar" kitabını oxumaqla siz bu füsunkar relyef forması haqqında hər şey, o cümlədən onların necə və harada yaranması, dərələrdə mövcud olan bitki və heyvanlar aləmi barədə ətraflı məlumat əldə edəcəksiniz.

Bu kitablar ilk dəfə 2014-cü ildə Böyük Britaniyanın "Capstone Global Library" nəşriyyatı tərəfindən "Heinemann Library" əmtəə nişanı altında "Valleys" adı ilə nəşr olunub. Adaların necə və harada yaranması, onların bitki və heyvanlar aləmi barədə ətraflı məlumatı əks etdirən kitab "Capstone Global Library" nəşriyyatının orijinalı əsasında TEAS Press Nəşriyyat evində tərcümə edilərək çapa hazırlanı




**Mehdiyeva G**. Yerdən yurda. - Bakı : Təhsil, 2023. - 48 s.
Kitabda uşaqlara təbiət hadisələri haqqında maraqlı məlumatlar verilir. Günəş və yer, iqlim, Arktika və Antarktika, mülayim iqlim qurşaqları haqqında, həmçinin Azərbaycanın təbiəti haqqında, eləcə də Daşkəsən haqqında məlumatlar yer alır. Sonda isə uşaqların diqqətini ekoloji problemlərə çəkərək, onların Yer kürəsini necə qorumalı olduqları haqqında məlumat verilir.

**Mehdiyeva G**. Yer kürəsi evimiz: II-V sinif şagirdləri üçün. – Bakı: Təhsil, 2023. – 48 s.




Hər birimiz təbiəti qorumalıyıq. Onu qorumaq üçün biz təbiət haqqında ətraflı məlumatlar almalıyıq. Bu kitabda uşaqların təbiət haqqında mühüm biliklərə yiyələnməsi üçün kifayət qədər məlumat yer alır. Uşaqlar hava və iqlim, iqlim qurşaqları, temperatur, qütb dairələri, okeanlar, bitkilər, meşələr, çaylar, dağlar və dərələr, heyvanlar haqqında mühüm bilgiləri bu kitabdan əldə edə bilərlər. Həmçinin təbiət hadisələri – vulkanlar, fırtınalar haqqında da məlumat əldə edə bilərlər.




Mənim təbiət haqqında birinci kitabım : 5-6 yaşlı uşaqlar üçün. - Bakı :Çaşıoğlu-Multimedia, 2009. - 48 s.

Bu kitabda yer və yer üzərində yaşayan heyvanlar haqqında məlumat verilir və uşaqlara canlı aləmə səyahət etməyə kömək edir. Məqsəd uşağa elmi terminlərdən istifadə etmədən təbiət haqqında ilkin biliklər verməkdən ibarətdir. Düşünürük ki, kitabın oxunmasından sonra canlı aləm uşaqlara daha aydın və daha yaxın olacaq.




**Nuruqızı S**. Fəsillər : Bozqulaq və fəsillər. - Bakı : Təhsil, 2008. - 16 s. Uşaqlar, yəqin ki, məni tanıdınız. Dovşan balası Bozqulağam. Biraz tənbəl, biraz dəcəl, biraz dalaşqan olsam da, dostluqda sadiqəm. Dostlarım kirpi balası İpəkcəni və alma ağacanı çox sevirəm. Sizi də çox istəyitəm. Və elə ona görə də düşündüm ki, fəsillər haqqında bildiklərimi danışım, dostlarım da bilsinlər.







**Oksleyd K**. Dağlar : ingilis dilindən tərcümə. - Bakı : TEAS PRESS Nəşriyyat evi. "Üç alma uşaq ədəbiyyatı", 2015. - 32 s. Oxuculara təqdim olunan bu kitab ilk dəfə 2014-cü ildə Böyük Britaniyada "Capstone Global Library" Nəşriyyatı tərəfindən Heinemann Library" əmtəə nişanı altında Mountains adı ilə nəşr olunub. Dağların necə və harda yaranması, jnların bitki və heyvanlar aləmi barədə ətraflı məlumatı əks etdirən kitab "Capstone Global Library" nəşriyyatının orijinalları əsasında TEAS Press Nəşriyyat evində tərcümə edilərək çapa hazırlanıb."Dağlar" kitabını oxumaqla siz bu füsunkar relyef forması haqqında hər şey, o cümlədən, onların necə və harada yaranması, dağlarda mövcud olan bitki və heyvanlar aləmi barədə ətraflı məlumat əldə edəcəksiniz.

**Oksleyd K**. Vulkanlar : ingilis dilindən tərcümə. - Bakı : TEAS PRESS Nəşriyyat evi. "Üç alma uşaq ədəbiyyatı", 2015. - 32 s.
"Vulkanlar" kitabını oxumaqla siz bu füsunkar relyef forması haqqında hər şey, o cümlədən onların necə və harada yaranması, dərələrdə mövcud olan bitki və heyvanlar aləmi barədə ətraflı məlumat əldə edəcəksiniz.








**Royston A**. Çaylarda qida zənciri : ingilis dilindən tərcümə. - Bakı : TEAS PRESS Nəşriyyat evi. "Üç alma uşaq ədəbiyyatı", 2015. - 32 s. Oxuculara təqdim olunan bu kitab ilk dəfə 2014-cü ildə Böyük Britaniyada "Capstone Global Library" Nəşriyyatı tərəfindən "River Food Chains" adı altında nəşr olunub. Dünyadakı çaylarda olan qida zəncirləri və şəbəkələri haqqında geniş məlumatı əks etdirən kitab "Capstone Global Library" nəşriyyatının orijinalları əsasında TEAS Press Nəşriyyat evində tərcümə edilərək çapa hazırlanıb.

**Royston A**. Dağlarda qida zənciri : ingilis dilindən tərcümə. - Bakı : TEAS PRESS Nəşriyyat evi. "Üç alma uşaq ədəbiyyatı", 2015. - 32 s. Oxuculara təqdim olunan bu kitab ilk dəfə 2014-cü ildə Böyük Britaniyada "Capstone Global Library" Nəşriyyatı tərəfindən "Mountain Food Chains" adı altında nəşr olunub. Dünyadakı dağlarda olan qida zəncirləri və şəbəkələri haqqında geniş məlumatı əks etdirən kitab "Capstone Global Library" nəşriyyatının orijinalları əsasında TEAS Press Nəşriyyat evində tərcümə edilərək çapa hazırlanıb.

**Royston A**. Okeanlarda qida zənciri : ingilis dilindən tərcümə. - Bakı : TEAS PRESS Nəşriyyat evi. "Üç alma uşaq ədəbiyyatı", 2015. - 32 s.
Oxuculara təqdim olunan bu kitab ilk dəfə 2014-cü ildə Böyük Britaniyada "Capstone Global Library" Nəşriyyatı tərəfindən "Ocean Food Chains" adı altında nəşr olunub. Dünyadakı okeanlarda olan qida zəncirləri və şəbəkələri haqqında geniş məlumatı əks etdirən kitab "Capstone Global Library" nəşriyyatının orijinalları əsasında TEAS Press Nəşriyyat evində tərcümə edilərək çapa hazırlanıb.







**Royston A**. Səhralarda qida zənciri : ingilis dilindən tərcümə. - Bakı : TEAS PRESS Nəşriyyat evi. "Üç alma uşaq ədəbiyyatı", 2015. - 32 s.
Oxuculara təqdim olunan bu kitab ilk dəfə 2014-cü ildə Böyük Britaniyada "Capstone Global Library" Nəşriyyatı tərəfindən "Desert Food Chains" adı altında nəşr olunub. Dünyadakı səhralarda olan qida zəncirləri və şəbəkələri haqqında geniş məlumatı əks etdirən kitab "Capstone Global Library" nəşriyyatının orijinalları əsasında TEAS Press Nəşriyyat evində tərcümə edilərək çapa hazırlanıb.

**Royston A**. Tropik meşələrdə qida zənciri : ingilis dilindən tərcümə. - Bakı : TEAS PRESS Nəşriyyat evi. "Üç alma uşaq ədəbiyyatı", 2015. - 32 s.
Oxuculara təqdim olunan bu kitab ilk dəfə 2014-cü ildə Böyük Britaniyada "Capstone Global Library" Nəşriyyatı tərəfindən "Rainforest Food Chains" adı altında nəşr olunub. Dünyadakı tropik meşələrdə olan qida zəncirləri və şəbəkələri haqqında geniş məlumatı əks etdirən kitab "Capstone Global Library" nəşriyyatının orijinalları əsasında TEAS Press Nəşriyyat evində tərcümə edilərək çapa hazırlanıb.

Kitabların Azərbaycan dilinə tərcüməsi və nəşri hüququ TEAS Press Nəşriyyat evinə məxsusdu "Qida zəncirləri və şəbəkələri" seriyasından olan kitablarda qida zəncirinin nə olduğu və hər bir heyvan və ya bitkinin öz qida zəncirində oynadığı rolun əhəmiyyətini izah edilir. Oxuculara təqdim olunan bu kitabda dünyadakı okeanlarda, dağlarda, çaylarda, səhralarda və tropik meşələrdə olan qida zəncirləri və şəbəkələri, haqqında geniş məlumat verilir.
Əgər təbii yaşayış məskənlərində əsas yırtıcıların niyə az olması və ya heyvanların nə üçün istehlakçı adlanması ilə maraqlanırsınızsa, onda bu seriyadan olan kitablar məhz sizin üçündür.




**Ruzcka O**. Dünya atlası : Dünyanı bükülən yeddi xəritə vasitəsilə kəşf et. - Bakı : Zebra group, 2013. - 32 s.
Kitabda Asiya, Afrika, Avropa, Şimali, Cənubi və Mərkəzi Amerika qitələri haqqında, onların iqlimi, heyvanları, bitkiləri haqqında məlumatlar verilmişdir.




Su nədir?. - Bakı : ATRA Ko. LTD, 1997. - 43 s.

Kitabda suyun möcüzələri, əhəmiyyəti, müqəddəsliyi, ona qənaətin zəruriliyi barədə uşaqların başa düşəcəyi tərzdə söhbət açılır. Su dünyamızı dağılmağa qoymayan dörd mənbədən birincisidir. Torpaq, od, külək ondan sonra gəlir. Yer kürəsində su hər şeydən çoxdur. Su həm də bütün canlıların "ilk vətənidir".




**Tuma T**. Heyvanlar aləminin atlası : Planetin rəngarəng heyvanlar aləmi bükülən yeddi xəritə üzərində. - Çin : Zebra group, 2014. - 32 s.
Atlasda heyvanlar aləmi, onların müxtəlif növləri, yaşayış yerləri, qidalanması haqqında geniş məlumatlar verilmişdir. Həmçinin heyvanları əks etdirən maraqlı şəkillər də yer almışdır. Atlas həmçinin oxuculara müxtəlif qitələrin faunası ilə tanış olmağa və onun nə dərəcədə gözəl və qeyri-adi olduğunu öyrənməyə imkan verəcəkdir. Kitab sadə dildə yazılıb və 6 yaşından yuxarı uşaqlar üçün nəzərdə tutulub.






**Sleyd S**. Boz canavarlar olmasaydı? : Mülayim qurşaq meşələrinin ekosistemi haqqında kitab. - Bakı : TEAS PRESS Nəşriyyat evi. "Üç alma uşaq ədəbiyyatı", 2016. - 27 s.
Mülayim qurşaq meşələrinin ekosisteminə demək olar ki, bütün qitələrdə rast gəlinir. Orada saysız-hesabsız bitkilər və heyvanlar yaşayır. Bilirsinizmi, bir heyvan növünün məhvi nələrə səbəb ola bilər? "Qida zənciri reaksiyaları" seriyasını oxumağa davam edin və boz canavarların təbiətdəki əhəmiyyətini kəşf edin.

**Sleyd S**. Lemminqlər olmasaydı? : Tundra ekosistemi haqqında kitab. - Bakı : TEAS PRESS Nəşriyyat evi. "Üç alma uşaq ədəbiyyatı", 2016. - 27 s.
Tundra ekosistemi nəhəngdir. O, şimal qütbünün böyük hissəsini əhatə edir. Orada saysız-hesabsız bitkilər və heyvanlar yaşayır. Bilirsinizmi, bir heyvan növünün məhvi nələrə səbəb ola bilər? "Qida zənciri reaksiyaları" seriyasını oxumağa davam edin və lemminqlərin təbiətdəki əhəmiyyətini kəşf edin.




**Salahzadə Ə.** Taladakı tənha ağacın nağılı : nağıl. - Bakı : Beşik, 2009. - 34 s.

Nağılda tənha ağacın bütün fəsillərdəki görünüşü, buludların, günəşin həmin ağacla münasibəti əks olunmuşdur. Nağıldaki ağac yarpaqları özünün tacı sayır, hər budağı özünün qol-qanadı bilir, gövdəsini yarpaqlarında da, budaqların da dayağı hesab edirdi.




**Voldron M**. Səhralar. - Bakı : TEAS PRESS Nəşriyyat evi. "Üç alma uşaq ədəbiyyatı", 2016. - 32 s.

Dənizdə qulyabanılar varmı? "Yer üzündə həyatın gələcəyi" kitabı planetimizdə hələ də nə qədər naməlum canlıya rast gəlinməsindən bəhs edir. Burada onların təsviri də verilir. Kitabda biomüxtəlifliyə təsir edən amillərə və planetimizin gələcək mənzərəsinə nəzər salınır. Müəllif bu kitabda alimlərin narahatlıqla vurğuladığı ümumi problemləri açmağa cəhd edir və bu mövzuların oxucuya birbaşa aid olduğunu göstərir.




**Tahirli S**. Təbiət. Bildiklərimiz və bilmədiklərimiz. - Bakı : Ayna Mətbu Evi, 2004. - 85 s.

Yaşadığımız dünya, bizi əhatə edən təbiət gözəl və rəngarəng olduğu qədər də maraqlıdır. Biz özümüz də bu zəngin təbiətlə əhatələnmişik. Əslində, Yer kürəsi adlandırdığımız planetin məzmunu da elə ən şüurlu və ən ali varlıq olan insanlarla təbiətin harmoniyasıdır. Dünyamızın sabahı, gələcəyimiz bu vəhdətdən və bu vəhdətin əzəli və əbədi tarazlığından asılıdır. Bu tarazlıq pozularsa dünya fəlakətə yuvarlanar, məhv olar. Belə bir təhlükənin qarşısını almaq üçün ilk növbədə biz canlılar aləmini və bitki örtüyünü öyrənməliyik. Bu kitab da məhz onun üçündü.




Təbiət haqqında hekayələr. - Bakı : Çaşıoğlu-Multimedia, 2010. - 96 s.

Kitabda məşhur və əyləncəli hekayələr yazılmışdır. Heyvanlar haqqında maraqlı hekayələrdən bəhs edən bu kitab uşaqlara gözəl təəssüratlar bağışlayacaq. Tanınmış yazıçılar Konstantin Uşinski, Georgi Skrebiski, Vitali Bianki və Konstantin Paustovskiyə məxsus müxtəlif hekayələr kiçik dostlarımızın təbiət haqqındakı təsəvvürlərinin genişlənməsinə kömək edəcək.

**Morqan S**. Heyvanlar aləmi. - Çin : Zebra group, 2013. - 120 s.
Bu kitab planetimizin ən təhlükəli, cəld, iri və qəribə heyvanlarından, onların həyat tərzi və vərdişlərindən bəhs edir. Gözəl şəkillər kitabın oxunmasını daha əyləncəli edəcək və onun bütünlüklə qavranılmasını asanlaşdıracaqdır. İri pişiklərin öz qurbanlarını necə izlədiklərini və onun üzərinə necə atıldıqlarını, Afrika filləri və yarasalar haqqında öyrənmək istəyirsənsə bu kitabı oxuyun.Bu kitabı oxuduğun zaman sən müəmma və sirlərlə dolu, rəngarəng heyvanlar aləminə səyahətə çıxacaqsan.







**Vuster P**. Süxurları və mineralları mənə göstər. - Bakı : TEAS PRESS Nəşriyyat evi. "Üç alma uşaq ədəbiyyatı", 2016. - 32 s.
Ərimiş lavalardan tutmuş parlaq kristallara qədər Yer kürəsində rast gəldiyimiz süxurlar və minerallar barədə öyrənməli çox şey var. "Süxurları və mineralları mənə göstər" kitabında bu qeyri-adi maddələr barədə 100-dən artıq fakt və məlumat əks olunub. "Mənim ilk şəkilli ensiklopediyam" seriyasına daxil olan kitablar baxıb öyrənmək üçün ən yaxşı vasitədir! Çoxlu faktlarla və şəkillərlə zəngin olan bu kitabların köməyilə istədiyin mövzu barədə ətraflı məlumat ala bilərsən!

Yaşıl kitab : Dağlar, düzlər, çöllər, çəmənlər, çaylar, dənizlər, ağaclar, yamaclar, uçanlar, üzənlər, qaçanlar... bir sözlə, təbiət haqqında kitab : Təbiəti tanımaq, sevmək və qorumaq istəyən azyaşlı məktəblilər üçün ensiklopedik məlumat. - 1-ci nəşr. - Bakı : Tutu Uşaq Mədəniyyət Mərkəzi, 1998. - 28 s.

Bu kitabda materiklər, təbii zonalar, dağlar, düzənliklər, okeanlar haqqında məlumat verilmişdir. Kitabın hazırlanmasında bir çox albom, jurnal, coğrafi kitabların materiallarından istifadə olunmuşdur.



# Ekologiya və ətraf mühit




**Axundov M**. Zamanı qabaqlayan klassiklərimiz təbiət haqqında : XI-XIX əsrlərdə Aərbaycanda bioloji fikrin inkişafı tarixindən [et al.]. - Bakı : CBS, 2015. - 522 s.
